# Şuşa haqqında 7 dildə buklet çap olunub

**AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa" bukleti çapdan çıxıb.**

İnstitutdan bildirilib ki, Şuşa haqqında həqiqətləri dünya xalqlarına çatdırmaq məqsədilə bukletin materialları Şərqşünaslıq İnstitutunun əməkdaşları tərəfindən rus, ingilis, türk, ərəb, fars və Çin dillərinə tərcümə olunub və Azərbaycan dili ilə yanaşı, ayrı-ayrılıqda qeyd olunan 6 dildə də çap edilib.

Bukletdə Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın tarixindən ətraflı bəhs edilir. Nəşrdə həmçinin Şuşa toponiminin etimologiyası, şəhərin təsərrüfat sahələri, tarixi abidələri haqqında məlumat verilir. Eyni zamanda Şuşanın mədəniyyət tarixinə, görkəmli mədəniyyət xadimlərinə aid məlumatlarla tanış olmaq olar. Bukletdə həmçinin işğal dövründə Şuşa şəhərinin ermənilər tərəfindən dağıdılan binalarından, tarixi abidələrindən, talan edilən mədəniyyət nümunələrindən bəhs edilir.




Oxucuların nəzərinə 2020-ci ilin 27 sentyabrından başlayan 44 günlük Vətən müharibəsində Azərbaycan torpaqlarının, o cümlədən noyabrın 8-də Şuşanın azad edilməsi, bu zaman Azərbaycan hərbçilərinin göstərdiyi rəşadət və igidliklər haqqında məlumat da çatdırılır.

Sonda Şuşa şəhərinin bərpası istiqamətində görülən işlər haqqında söhbət açılır və bukletin hazırlanmasında istifadə edilən ədəbiyyatın siyahısı diqqətə çatdırılır.

Azərbaycan. - 2023.-11 iyun.- S.5.